**Türkiyədən idxal olunan bioloji aktiv qida məhsulu partiyasında uyğunsuzluğun aşkarlanmasına dair məlumat**

**(14 oktyabr 2024)**

Nəzarət tədbirləri çərçivəsində "Buğur" MMC-nin Türkiyə Respublikasından idxal etdiyi "Evren İlaç Kozmetik San. ve Tic. LTD" şirkətinə məxsus "Leopard, kapsul №10" əmtəə nişanlı bioloji aktiv qida məhsulu partiyasından (13.02.2024-13.02.2027 istehsal və son istifadə tarixli) Agentlik əməkdaşları tərəfindən nümunələr götürülərək Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun müvafiq laboratoriyasına təqdim edilib. Laborator müayinələr nəticəsində nümunələrdə uyğunsuzluq - "Tadalafil və Sildenafil" aşkarlanıb. Faktla bağlı qanunvericiliyə uyğun müvafiq tədbirlər görülüb.

Aşkarlanmış uyğunsuzluqla əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi üçün Türkiyə Respublikasının aidiyyəti dövlət qurumuna rəsmi məktub göndərilib.